

# *Füzulidən bir neçə beyt...*

**(1)**

**Surəti-təhrirə gəlməz olsa dəryalar midad,**

**Şərhi-bidadü-bəlayi-rəzmigahi-Kərbəla.**

**Kərbəlada həsr olub aləmdə hər möhnət ki, var,**

**Bənd qılmışdır təriqi-səbri Şahi-Kərbəla.**

**Mənası;**

**Bütün dənizlər qələm olsa belə yazmaq və təsvir etmək mümkün deyil**

**Kərbəla meydanının hesabsız bəlalarını...**

**Dünyada mövcud olan bütün dərdlər məhz orada cəm olmuşdu...**

**Məhz İmam Huseynin (ə) səbri və müqəddəs yolu bu qədər dərd və bəlanın Kərbəlada yaşanmasını mümkün etdi...**

**(2)**

**İsmin ilə başladım ey arizulər məzhəri.**

**Ey olan zati-qəni, ey gəncü dövlət sərvəri.**

**•Adın ilə başladım ey arzuların zahir olan yeri...**

**Ey zənginliyi zatından olan, ey xəzinə sahibi...**

**Ey səxavət mənbəyi, ey varlığı icad edən.**

**Ey Qədim, mülki fənasız, ey dəyişməz cövhəri.**

**•Ey səxavət mənbəyi, ey varlığı xəlq edən...**

**Ey Qədim, mülki daim var olan, ey cövhəri dəyişməyən...**

**Ey ümumə lütf edib şadlıq səfasın bəxş edən.**

**Ey təbibi-qəlb olan, ey həll edən müşkülləri.**

**•Ey hər şeyə lütf edib, şadlıq səfası bəxş edən,**

**Ey dərdli qəlblərin dəvası, ey çətinlikləri həll edən...**

**Tövbə qıldı bir günah etmişdisə qəlbim mənim.**

**Bilmiş öz səhvü-xətasın, əfv qıl bu müztəri.**

**•Qəlbim etdiyi günahdan tövbə etdi.**

**Öz səhv və xətasını anladı, əfv et bu pərişan halda olanı...**

**Qibləgahim, olmaram qul səndən özgə kimsəyə.**

**Tanrısan, ruzi verənsən, yoxdu Səndən digəri.**

**•Ey qibləgahım, Səndən özgəsinə qul olmaram,**

**Tanrısan, ruzimizi verənsən, səndən başqa İlah yoxdur...**

**Ən böyük bir rütbəyə yüksəldi səndən qədrimiz.**

**Səndən oldu qəlbimiz hər gizli sirrin məzhəri.**

**•Sənin hesabına ən böyük rütbəyə yüksəldi şanımız.**

**Qəlbimiz Sənin hesabına gizli sirlərə vaqif oldu...**

**Qəlbimi nurunla açdın, nolar açsan nitqimi.**

**Verdiyin nemətlər olsun ta ki, dillər əzbəri.**

**•Qəlbimə nur salaraq məni hidayət etdin, nolar nitqimi də aç ki,**

**Verdiyin nemətləri misralara düzüm və dillər əzbəri edim...**

**Nitqi verdinsə gözəl söz söyləməkdə lütf qıl.**

**Şe'rim ilə zahir olsun gizli hikmət zivəri.**

**•Nitq vermisən, gözəl söz söyləmək lütfünü də əta et.**

**Şe’rim ilə gizli hikmət nəqşi, nəqqaşlığı aşkara çıxsın.**

**Lütfün ə’ları sözün bilməkdədir mənasını.**

**Həmd qıl, vermiş Füzuli, Həqq sənə bu gövhəri.**

**Lütfün ən ucası odur ki, insan sözdəki mənanı duya,**

**Həmd et ey Füzuli, Haqq-Təala sənə bu gövhəri əta edib...**

**(3)**

**Mahi-Muhərrəm oldu, şəfəqdən çıxub hilal,**

**Qılmış əza, tutub qədi-xəm qərqi-əşki-al.**

**•Məhərrəm ayı olub deyə ay şəfəqdən hilal (aypara) şəklində doğub,**

**Əza tutmaqdan qəddi əyilib, göz yaşına qərq olub...**

**Övladi-Mustəfaya mədəd qılmamış Fərat,**

**Keçirməsinmi yerlərə anı bu infial?!**

**•Peyğəmbər övladına su verməyib, yardım etməyib Fərat,**

**Bu işinə görə onun başı batmasınmı?!...**

**Çoxdur hekayəti-ələmi-şahi-Kərbəla,**

**Əlbəttə, çox hekayət olur mövcibi-məlal.**

**•Kərbəla Şahının əziyyətlərinin hekayəsi çoxdur,**

**Bu hekayələr insanı dərdə, qəmə salır...**

**Fəhm eyləsən qəmi-şühəda şərhin etməgə,**

**Hər səbzə Kərbəlada çəkübdir zəbani-hal.**

**•Əgər şəhidlərin qəmini şərh etmək istəsən,**

**Biləsən ki, Kərbəladakı ağaclar belə qəmə batmışdılar...**

**Təcdidi-matəmi-şühəda qıldı ruzigar,**

**Zar ağla, ey könül, bu gün olduqca ehtimal.**

**•Günlər ötdü, təzə mahi-Məhərrəm gəldi,**

**Bugün bacardıqca çox ağla, ey könül...**

***

**Meydani-çərxi cilvəgəhi-dudi-ah qıl,**

**Gərduni-dunə kisvəti-matəmsiyah qıl.**

**•Meydanda dairəvi heyət içindən ahını duman kimi ucalt,**

**Dünya səmasını qara matəm libasına bürü...**

***

**Mahi-Muhərrəm oldu məsərrət həramdır,**

**Matəm bu gün şəriətə bir ehtiramdır.**

**•Muhərrəm ayı gəldi, şadlıq haramdır,**

**Matəm bugün şəriətə bir ehtiramdır...**

**Təcdidi-matəmi-şühəda nəf'siz degil,**

**Qəflətsərayi-dəhrdə tənbihi-ammdır.**

**•Matəmi hər dəfə yenidən qeyd etmək faydasız iş deyil,**

**Bu qəflət sarayı olan dünyanın əhlinə bir xatırlatma, tənbehdir...**

**Qovğayi-Kərbəla xəbərin səhl sanma kim,**

**Nəqsi-vəfayi-dəhrə dəlili-təmamdır.**

**•Kərbəla qovğası barədə deyilənləri asan hesab etmə,**

**Bu faciə dünyanın vəfasızlığına ən gözəl dəlildir...**

**Hər dürri-əşk kim, saçılur zikri-Al ilə,**

**Səyyareyi-sipehri-ülüvvi-məqamdır.**

**•Ali-Muhəmmədi yad edərək tökülən inci göz yaşları,**

**Asimanın ən uca və ülvi məqamında seyr edər...**

**Hər məddi-ah kim çəkilür Əhli-Beyt üçün,**

**Miftahi-babi-rövzeyi-Darüs-səlamdır...**

**•Əhli-Beyt üçün çəkilən hər ah**

**Bir Darus-Səlam cənnətinin qapısının açarıdır...**

***

**Şad olmasın bu vaqiədən şad olan könül,**

**Bir dəm məlalü-qüssədən azad olan könül.**

**•Heç vaxt şad olmasın bu hadisədən şad olan qəlb,**

**Bircə an qəm-qüssədən azad olan qəlb...**

***

**Tədbiri-qətli-Ali-Əba qıldun, ey fələk,**

**Fikri-qələt, xəyali-xəta qıldun, ey fələk.**

**•Peyğəmbərin əba altına topladıqlarının qətlinə tədbir qıldın ey fələk,**

**Səhv fikrə düşdün, xətalı xəyala qapıldın ey fələk...**

**Bərqi-səhabi-hadisədən tiğlər çəkübü,**

**Bir-bir həvaleyi-şühəda qıldun, ey fələk.**

**•Faciə buludlarının ildırımlarını qılınc tək**

**Bir-bir İmam Hüseyn əshabına sancdın ey fələk...**

**İsmət hərəmsərasinə hörmət rəva ikən,**

**Pamali-xəsmi-bisərü pa qıldun, ey fələk.**

**•Məsumiyyət hərəmlərinə hörmət vacib ikən,**

**Düşmənçiliklə ayaqlar altına aldın ey fələk...**

**Səhrayi-Kərbəlada olan təşnələblərə,**

**Rigi-rəvani seyli-bəla qıldun, ey fələk.**

**•Kərbəla səhrasının susuzlarına**

**Bəlalı daş seli göndərdin ey fələk...**

**Təxfifi-qədri-şər'dən əndişə qılmayub,**

**Övladi-Mustəfaya cəfa qıldun, ey fələk.**

**•Şərrinin qədərindən azca azaltmadan**

**Mustəfa övaladlarına ancaq cəfanı rəva qıldın ey fələk...**

*******

**Bir rəhm qılmadun cigəri qan olanlara.**

**Qürbətdə ruzigarı pərişan olanlara.**

**•Azca da olsa rəhm etmədin ciyəri qan olanlara,**

**Qərib diyarda pərişan hala düşənlərə...**

*******

**Basdıqda Kərbəlaya qədəm Şahi-Kərbəla,**

**Oldu nişani-tiri-sitəm Şahi-Kərbəla.**

**•İmam Hüseyn Kərbəlaya qədəm qoyduqda**

**Sitəm oxlarının nişangahına çevrildi...**

**Düşmən oxuna qeyr sipər görməyüb rəva,**

**Yaxmışdı cana daği-ələm Şahi-Kərbəla.**

**•Düşmənin atdığı oxa başqa bir şeyi deyil,**

**Öz canını sipər etmiş, qəm dağını canına çəkmişdi Şahi-Kərbəla...**

**Ə’da müqabilində çəkəndə səfi-sipah,**

**Qılmışdı məddi-ah ələmi Şahi-Kərbəla.**

**•Düşmən müqabilində səf çəkib cərgələnərkən,**

**Qəm dolu bir ah çəkmişdi Şahi-Kərbəla...**

**Dudi-dili-püratəşi-əhli-nəzarədən,**

**Etmişdi pərdədari-hərəm Şahi-Kərbəla.**

**•Atəşlə yanan qəlblərin tüstüsündən**

**Hərəminə pərdə çəkmişdi Şahi-Kərbəla...**

**Olduqca ömrü rahəti-dil görməyüb dəmi,**

**Olmuş həmişə həmdəmi-qəm Şahi-Kərbəla...**

**•Ömrü boyu bir dəm rahatlıq görməyib,**

**Həmişə qəm ilə həmdəm olmuşdu Şahi-Kərbəla...**

*******

**Ya Şahi-Kərbəla, nə rəva bunca qəm sana.**

**Dərdi-dəmadəmü ələmi-dəmbədəm sana.**

**•Ey Şahi-Kərbəla bu qədər qəm rəvadırmı sənə?!...**

**Hər dəm əziyyət və ardıcıl dərdlər...**

*******

**Ey dərdpərvəri-ələmi-Kərbəla Hüseyn!**

**Vey Kərbəla bəlalarına mübtəla Hüseyn!**

**•Ey Kərbəladakı dərd-qəm ilə aşina Hüseyn!**

**Vay! Kərbəla bəlalarına mübtəla olmuş Hüseyn...**

**Qəm parə-parə bağrını yandırdı dağ ilə,**

**Ey laleyi-hədiqeyi-Ali-Əba Hüseyn!**

**•Qəm paralanmış bağrına dağ çəkərək daha da yandırdı,**

**Ey Ali-Əba bağçasının laləsi Hüseyn...**

**Tiği-cəfa ilə bədənin oldu çak-çak,**

**Ey bustani-səbzeyi-tiği-cəfa, Hüseyn.**

**•Cəfa qılıncı ilə bədənin para-para oldu.**

**Ey bağçasının gülləri cəfa qılıncları olan Hüseyn...**

**Yaxdı vücudunu qəmi-zülmətsərayi-dəhr,**

**Ey şəm'i-bəzmi-barigəhi-Kibriya, Hüseyn!**

**•Dünyanın zülmət sarayının qəmi yaxdı səni,**

**Ey Böyük Allahın hüzurunda yanan şam-Hüseyn!**

**Dövri-fələk içirdi sənə kasə-kasə qan,**

**Ey təşneyi-hərarəti-bərqi-bəla Hüseyn!**

**•Fələk sənə kasa-kasa qan içirdi,**

**Ey bəla atəşinin istisinə susamış Hüseyn!**

**Yad et, Füzuli, Ali-Əba halın, eylə ah!**

**Kim, bərqi-ah ilən yaxılur xirməni-günah.**

**•Yada sal Füzuli Ali-Əbanın halını, ah et!**

**Günah xirməni bu atəşli ah ilə yanıb aradan gedər...**

**(4)**

**Hər kim ki, zikri-vaqieyi-Kərbəla ilə**

**Bir natəvanın eyləyə çəşmini əşkbar,**

**Gülzari-izzü cahani sərsəbz qılmağa**

**Ol çeşmi-əşkbar yetər əbri-növbəhar...**

**Mənası;**

**Hər kim ki, Kərbəla faciəsini zikr edib, bir bəndənin gözündən yaş gətirər,**

**Həmin göz yaşı, bahar buludları kimi cahanın əzəmətli gül bağçasını başdan-başa yamyaşıl etməyə bəs edər.**

**(5)**

**Müsibəti-Həsənü möhnəti-Hüseyni-şəhid**

**Dəmi ki, oldu qəməfzayi-təb'i-paki-Rəsul,**

**Təsəlliyi-dili-paki-Rəsul üçün Həqdən**

**Bəyani-qisseyi-Yə'qubü Yusif etdi nüzul.**

**Mənası;**

**Həsənin müsibəti və şəhid Hüseynin qəmi**

**O dəm ki, pak peyğəmbərin halını qəmlərə bürüdü,**

**Haqq Allahdan peyğəmbərin pak qəlbinə təsəlli üçün**

**Yəqub və Yusifin hekayəsi nazil oldu...**

**(6)**

**Kərbəla təşnələrin yad qılub əşk tökən,**

**Ətəşi-ruzi-cəzadən ələmü qəm çəkməz.**

**Şühəda halın anub şövqilə yanub yaxılan,**

**Ələmi-şö'leyi-nirani-cəhənnəm çəkməz.**

**Mənası;**

**Kərbəla susuzlarını yad edib, göz yaşı tökən,**

**Qiyamətin günündəki susuzluqdan əziyyət və qəm çəkməz...**

**Şəhidlərin halını anaraq şövq ilə yanıb yaxılan,**

**Cəhənnəm odunun şölələrindən amanda qalar...**

(7)

Ey qılanlar arizuyi-abi-Kövsər dəmbədəm,

Təşnə dünyadan gedən Ali-Rəsuli yad edin.

Macərayi-Kərbəla zikrin qılın şamü-səhər,

Təb'iniz ol zikri-rə'fətbəxşilə mö'tad edin.

Mənası;

Ey Kövsər bulağının suyunu arzu edənlər,

Peyğəmbər ailəsinin susuz dünyadan gedənini yad edin...

Sübh-axşam Kərbəla faciəsini yad edərək,

O uca zikrlərlə qəlbinizi riqqətə gətirin...

**(8)**

**Mədhi-Hüseyni vəsfi-Həsən qılsalar tələb,**

**Xətmi-kəlam edib qılalım müxtəsər sözü.**

**Ol iki bərgüzideyi-dövri-zəmanədir,**

**İki cahan pənahı, cahanın iki gözü.**

**Mənası;**

**İmam Hüseyni tə'rif, İmam Həsəni vəsf et desələr**

**Sözümüzü xətm edib qısa şəkildə bu sözü deyərik;**

**Onlar zəmanənin iki seçilmişləridirlər,**

**İki cahanda pənahgah, iki aləmin gözüdürlər...**

**(9)**

**Ey əhli-kin, nəbivü-vəli busəgahını**

**Xunabi-nab qərqəsi etmək rəvamıdır?**

**Qət'i-təəllüq eyləmək Ali-Rəsulidən**

**Biz ümmətiz deyənlərə şərti-vəfamıdır?**

**Mənası;**

**Ey kinli dəstə, rəvadırmı peyğəmbər və İmam öpən üzü qanına qərq elədiz?**

**Məgər özlərinə Muhəmməd ümməti deyənlərə peyğəmbər nəsli ilə düşmənçilik vacib edilib ya peyğəmbər nəslini sevmək?!...**

**(10)**

**Əsəri-xidməti-Hüseyni-Əli,**

**Səbəbi-dövləti-səadətdir!**

**Rəhi-eşqində tərki-can etmək,**

**Mövcibi-rütbeyi-şəhadətdir!**

**Mənası;**

**Hüseyn ibni Əlinin xadimi olmaq, səadətə çatmaqdır...**

**Onun eşqi yolunda canından keçmək, şəhadət mərtəbəsinə çatmaqdır...**

**(11)**

**Mən əzəldən nuri-pak-Müstəfanı sevmişəm,**

**Şahi-Mərdan, Şiri-Yəzdan Mürtəzanı sevmişəm.**

**Yox mənim canimdə qorxu atəşi-niranidən,**

**Çün Həsən, xummi Hüseyn, Kərbü-bəlanı sevmişəm.**

**Rəhnümadır cümlə iman əhlinə Zeynül-İbad,**

**Baqiri-Cə'fər, Əli, Musər-Rizanı sevmişəm.**

**Həm Təqidir, həm Nəqidir, həm İmami-Əskəri**

**Ey Füzuli, sidq ilən Sahib-Zəmanı sevmişəm.**

**Mənası;**

**Mən əzəldən pak nurlu Muhəmməd-Mustafanı sevmişəm...**

**Mərdlərin Şahı, Allahın Şiri Əliyyəl-Mürtəzanı sevmişəm...**

**Mənim canımda cəhənnəm atəşindən qorxu yoxdur,**

**Çünki İmam Həsəni, İmam Hüseynin Kərbəlasını sevmişəm...**

**İmam Zeynəl Abidin bütün iman əhli üçün yol göstərəndir.**

**İmam Baqiri, İmam Sadiqi, İmam Museyi Kazimin oğlu İmam Rzanı sevmişəm...**

**Həm İmam Muhəmməd-Təqini, həm İmam Əliyyən-Nəqini, Həm İmam Həsən-Əsgərini,**

**Bu Füzuli sidq ürəkdən İmam Mehdi Sahib-əz-Zamanı sevib...**

**(12)**

**Kərbəla dəştinün avarələrin yad qılub,**

**Əxtəri-əşk töküb gərdişi-gərdun ağlar.**

**Çərxidən ağlama, zalim deyü, ey qafil kim,**

**Çərx bu vaqiə'də cümlədən əfzun ağlar.**

**Mənası;**

**Kərbəla səhrasında avara qalanların halını yad edərək,**

**Göy üzü ulduzlarını göz yaşı kimi töküb ağlayar...**

**Fələkdən bir zalım qafilcə ağlama deyir fəqət,**

**Fələk özü bu faciəyə hər kəsdən çox ağlayar...**

**(13)**

**Əzbər olmuşdur dilimdə şanlı namın, ya Əli!**

**Mən kiməm, aləmdə bir kəmtər qulamın, ya Əli!**

**Şükr ola Allahə kim sayə salıbdır başimə,**

**Dövləti-iqbal ilə lütfi-müdamın, ya Əli!**

**Müshəfi-həqdə olan hər hikmətin mənasıdır,**

**Hikmətin kani olan hər bir kəlamın, ya Əli!**

**Kim nəcat istər Qiyamətdə, gərəkdir saxlaya,**

**Taəti-həqq tək həmişə ehtiramın, ya Əli!**

**Cümlə insanlar, mələklər Kə'bə tək məbəd sanar,**

**Hər yerin kim orda olmuşdur məqamın, ya Əli!**

**Hər kəs istərsə, cahanda çərxidən alsın murad,**

**Kama çatmaz olmasa, lütfi-tamamın, ya Əli!**

**Lütfi-süfrəndən sənin hər ləhzədə min feyz alır,**

**Bu Füzuli vird edər həmdi-səlamın, ya Əli!**

**Mənası;**

**Ey Əli, şanlı adın dilimin əzbəridir.**

**Ey Əli, mən sənin naqis bir qulunam.**

**Ey Əli, Allaha şükrlər olsun ki, sənin kölgəndəyəm**

**Bəxtimə və taleyimə daimi lütfünlə sayə salmısan.**

**Ey Əli, sənin hikmət mədəni olan hər bir kəlamın**

**Haqq səhifələrindəki hikmətin mənasıdır...**

**Ey Əli, kim qiyamət günü nicat tapmaq istəsə,**

**Gərək haqqa itaət etdiyi kimi, sənin də ehtiramını saxlaya...**

**Ey Əli, bütün insanlar və mələklər Kəbə kimi məbəd edərlər**

**Sənin ayaq basdığın hər bir güşəni...**

**Ey Əli, çərxi-fələkdən muradını istəyən hər kəs**

**Sənin lütf və ehsanınla kama çatar...**

**Ey Əli, sənin lütf süfrəndən hər saniyədə min feyz alan bu Füzuli,**

**Sənə salam və həmdi dilinin əzbəri halına gətirib...**

**(14)**

**Düşməni-qafil sanur kim, xuni-ali-Mustəfa,**

**Bağı-iqbalinə gülbərgi-bəharəfruzdur.**

**Ehtiraz etməz, həzər qılmaz, məgər vaqif degil**

**Kim, anın hər qətrəsi bir bərqi-aləmsuzdur.**

**Mənası;**

**Qafil düşmən zənn edir ki, Əhli-Beytin qanı**

**Əldə edəcəyi bağların bahar gülləridir.**

**Çəkinmir, qorxmur, başa düşmür ki, məgər**

**O qanın hər qətrəsi aləmi yandıran bir atəşdir...**

**(15)**

**Hüseyn İbn Əli İbn Talib kim, andandır,**

**Binayi-şər'ə istehkamü dini-Həqqə iste'la.**

**Müəzzəm cəddi-valası, nəbiyyi-ümmiyi-Məkki,**

**Mükərrəm babi-ilqasi Əliyyi-aliyi-ə'la.**

**Mənası;**

**Əbu Talibin nəvəsi, Əlinin oğlu Hüseyn o kəslərdəndir ki,**

**Onlar şərrin binası qarşısında möhkəm qala, Haqq dini ucaldandırlar**

**Əzəmətli və uca cəddi, Məkkənin ümmi (yazı bilməyən) nəbisidir,**

**Qapısı kəramət qapısı olan uca və ali məqamlı Əlinin qapısıdır...**

**(16)**

**Məhərrəmdir, könül fəryada gəl, ah eylə, əfğan qıl!**

**Əza dut, başa topraqlar savur, çaki-giriban qıl!**

**Qılub qət'i-nəzər mahi-Məhərrəm eyşü işrətdən,**

**Dəmadəm çeşmini məzlumlar yadıyla giryan qıl!**

**Urub gərduna bərqi-ahi-atəşbardan atəş,**

**Binasın yax, anı dövri-müxalifdən peşiman qıl!**

**Mənası;**

**Məhərrəmdir, könül fəryada gəl, ah et, fəqan et!**

**Əza saxla, başına torpaq tök, matəmdə olduğunu göstər.**

**Məhərrəm ayı boyunca eyş-işrətdən, kef və əyləncədən gözünü çək.**

**Durmadan məzlumları yad edərək gözlərini ağlat!**

**Elə bir atəşli ah çək ki, cahana od vurasan,**

**Yıx bu fələyin evini ki, İmam Hüseynlə müxalif olduğu üçün peşiman olsun!**

**(17)**

**Ya Rəb, nə fitnədir ki, cəhan qıldı aşkar?!**

**Ya Rəb, nə zülmdür ki, əyan etdi ruzigar?!**

**•Ya Rəbb, bu nə fitnədir çıxdı üzə,**

**Ya Rəbb, bu nə zülmdür edildi?!...**

**Ya Rəb, qəza bu əmrdə çəkməzmi infial?!**

**Ya Rəb, fələk bu fe'ldən olmazmı şərmsar?!**

**•Ya Rəbb, qəzavü-qədər bu işi icra etməkdən təsirlənməzmi?!...**

**Ya Rəbb, fələk bu işindən utanmazmı?!...**

**Abü həvayi-gülşəni-möhnətfəzayi-dəhr**

**Çün olmadı Hüseynə səfabəxşü sazkar,**

**•Dünya gülşəninin dərd-qəminin abu-havası**

**Hüseynə səfa bəxş etmədiyi üçün**

**Aram dutmayub yerə keçsin həmişə ab,**

**Məhdi-fərağət üzrə həva tutmasın qərar.**

**•Yerə batsın bu su həmişə,**

**Asayiş içində havaya buxarlanmasın...**

**Çün xakdani-dəhrdə aram bulmadı,**

**Sultani-din Hüseyni-Əli, şahi-kamkar,**

**•Çünki bu yer üzündə rahatlıq nədir bilmədi**

**Dinin sultanı, Şah Hüseyn ibni Əli...**

**Badi-fənaya getsə rəvadır bu xakdan,**

**Ayineyi-vücuda ədəmdən salıb qübar.**

**•Yoxluq küləyinə sovrulsa yaxşıdır bu cahan,**

**İnsanın yaradılışına yoxluqdan qubar salıb...**

**Ey dil, hökumətinə cəhanın nə e’timad?!**

**Ey didə, həşmətinə zəmanın nə e’tibar?!**

**•Ey ürək, bu cahandakı hökümətə nə etimad?!...**

**Ey göz, bu zəmanənin əzəmətinə nə etibar?!...**

**Olsaydı ruzigar nihadında bir səbat,**

**Əhdin qılırdı Ali-Rəsul ilə üstüvar.**

**•Ruzigarın özündə əmniyyət və səbat olsaydı,**

**Ali-Rəsul ilə əhd bağlayar və səbat edərdi...**

**Dövran cibillətində gər olsaydı bir vəfa,**

**Ali-Rəsul xidmətin eylərdi ixtiyar.**

•Dövranın xislətində vəfası olsaydı əgər,

Ali-Rəsul xidmətində durardı...

Ol vəqtdən ki, xəsm rizasıyla tiğü-tir

Şahi-şəhidin eylədi ə’zasını figar,

•O vaxt ki, yaralarının razılığı ilə qılınclar və oxlar

Şəhidlərin şahının əzasını parça-parça etdi...

Açmış dəhan təəssüf üçün tiri-tündrəv,

Çəkmiş zəban təhəssür üçün tiği-abdar.

•Sürətli uçan oxlar ağzını açmış,

İti qılınclar hazırlanmış...

Ya Rəb ki, tiğ çıxmaya həbsi-niyamdan!

Ya Rəb, ki qanda olsa ola tir xaksar...

•Ya Rəbb, kaş o qılınclar qınından çıxmaya!

Ya Rəbb, kaş o oxlar harda olsa uçub yerə düşəydi...

**(18)**

**Pəri-Cibrildir divari-dövlətxaneyi-ismət,**

**Anın sükkaninə asib yetməz şərri-şeytandan.**

**Hərimi-qürbi-Əhli-Beyt bənzər zövrəqi-Nuha,**

**Olan ol zövrəq içrə ehtiraz eylərmi tufandan?!**

**Mənası;**

**Məsumiyyət evinin divarları Cəbrəilin qanadlarıdır...**

**Ona heç şeytan şərri zərər yetirə bilməz...**

**Əhli-Beytə yaxınlıq Nuhun gəmisi kimidir ki,**

**O gəminin içində olanlar tufandan qorxarlarmı?**

**(19)**

**Şahidi-ifrati-ğəmdir kəsrəti-fəryadü ah,**

**Seyli-abi-çeşm miqdarı dil azarincədür.**

**El əzasinə nə nisbətdir əzayi-Əhli-Beyt,**

**Çün əzası hər kimin məqtul miqdarincədür.**

**Mənası;**

**Fəryad və ahın çoxluğu qəmin çoxluğundandır...**

**Gözdən axan selin miqdarı qəlbdəki azar qədərdir...**

**Əhli-Beytin əzasını el əzasına tay tutma, çün,**

**Hər kəs verdiyi şəhid miqdarınca əza saxlayar...**

**(20)**

**Eyləyib hər yil cəmi'i-əhli-aləm ittifaq,**

**Şərh edərlər macərayi-Kərbəla əxbarını.**

**Nə tükənməz qissədir kim, hərgiz axir olmadı,**

**Şərhi aciz eylədi əhli-cəhanın varını.**

**Mənası;**

**Hər il bütün aləm cəm olub,**

**Kərbəla qissəsini şərh edərlər...**

**Bu necə tükənməz bir hekayədir ki, heç vaxt sonu çatmır...**

**Hekayəti eşidənlərin canını bitab edir...**

**(21)**

**Can fədayi-Kərbəla qıldım, bəladan dönməzəm;**

**Əhli-təslimən, bəlayi-Kərbəladan dönməzəm.**

**Tərki-sərdir müddəa meydani-eşq içrə bana,**

**Getsə başım dönməzəm, bu müddəadan dönməzəm...**

**Mənası;**

**Canımı Kərbəlaya fəda etdim, bəladan əl çəkmərəm!**

**Mən Kərbəlanın bəlalarına təslim olanlardanam...**

**Eşq meydanında iddiam başımdan keçməyimdir!**

**Başım getsə yenə də öz iddiamdan dönmərəm...**

**(22)**

**Çeşmə nisbət dəmbədəm pakizə-tinətlər gözün,**

**Əşkbar eylər məlali-zikri-xaki-Kərbəla.**

**Ağladırsa Kərbəla toprağı dərd əhlin, nola**

**Bu müqərrərdir ki, daim göz yaşardır tutiya.**

**Mənası;**

**Geni pak olanların hər an gözündən çeşmə kimi**

**Göz yaşı axıdar Kərbəlanın qüssəli torpağının zikri...**

**Dərd əhlini Kərbəla torpağı ağladır, olsun...**

**Bu İlahi təqdirdir ki; gözə məlhəm dəyəndə yaşarsın...**

**(23)**

**Kərbəla dəştində Xatuni-qiyamət, ah, əgər**

**Qərqi-xun görsəydi Şahi-Kərbəlanın halini.**

**Hiç şək yox kim, qılurdı Kərbəla topraği̇ni,**

**Qərqi-xun, gözdən töküb seylabi-əşki-alini.**

**Mənası;**

**Kərbəla səhrasında əgər Xanım Fatimeyi-Zəhra**

**Şahi-Kərbəla İmam Hüseyni qanına qəltan olmuş halda görsəydi,**

**Heç şəkk yoxdur ki, Kərbəla torpağına**

**Qanlı göz yaşlarını sel kimi axıdar və səhranı qana qərq edərdi...**

**(24)**

**Qandadur böylə bir şərəflü nəsəb,**

**Mə’dəni-fəzli-izzü elmü ədəb.**

**•Hardadır belə bir şərəfli soy ki,**

**Fəzilət, izzət, elm və ədəb mədəni olsun...**

**Sifəti-Həzrəti-Hüseynü-Həsən**

**Cümleyi-kainatədür rövşən.**

**•Həzrəti Hüseyn və Həsənin siması**

**Cümlə kainata işıq saçır...**

**Ol biri paki-nəqdi-Mustəfəvi,**

**Bu biri nuri-çeşmi-Murtəzəvi.**

**•Onlardan biri Mustafadan törəmiş pak insan,**

**Digəri Mürtəzanın gözlərinin nuru...**

**Ol biri bədri-asimani-kəmal,**

**Bu biri sərvi-cuybari-cəmal.**

**•Onlardan biri səmadakı bədrlənmiş ay,**

**Digəri camal çeşməsinin sərvi...**

**Ol biri afitabi-övci-yəqin,**

**Bu biri gülbüni-hədiqeyi-din.**

**•Onlardan biri səmadakı yəqin günəşi,**

**Digəri din bağçasının gülü...**

**Hər biri bir hümayi-cilvənüma,**

**Rəfə’əllahu iqtidarəhuma**

**•Hər biri bir cilvələnən Hüma quşudur...**

**Allah onların ikisinin də adını ucaltsın!**

**(25)**

**Zəhri-ə’dadan Həsən şəhdi-şəhadət içmədən,**

**Bulmadı ə’dayi-din fürsət Hüseyn azarinə.**

**Ömrlər hər fitnə kim, pünhan edərdi ruzigar,**

**Fitneyi-qətli-Həsən oldu səbəb izharinə.**

**Mənası;**

**Nə qədər ki, İmam Həsən düşmənin zəhərini şəhadət şərbəti kimi içmənişdi,**

**Düşmən Hüseyni şəhid etməyə fürsət tapmırdı...**

**Ruzigar Əhli-Beyt düşmənlərinin bütün fitnələrini gizlətmişdi,**

**Həsənin qətl edilməsi ilə hamısı aşkara çıxdı...**

**(26)**

**Vəh ki, şahi-Kərbəlanun möhnətin izhar edüb,**

**Matəmindən göstərür hər yildə dövran bir bəhar.**

**Ol bəharın laləsi xunin cigərdür çak-çak,**

**Bərqi ahü rə’di əfğan əbri çeşmi-əşkbar.**

**Mənası;**

**Kərbəla şahının kədərini izhar edərək**

**Matəmindən hər ildə bir bahar göstərir dövran.**

**O baharın laləsi parça-parça olmuş qanlı cigərdir.**

**Şimşəyi ahu-əfğan, buludu nəmli gözlərdir…**

**(27)**

**Xuni-Ali-Mustəfa tökməz müsəlmanam deyən,**

**Qəsdi-Əhli-Beyt qılmaz əhli-imanam deyən.**

**Adət etməz kəndüyə Ali-Məhəmməd büğzünü,**

**Ruzi-Məhşər talibi-tövfiqi-qüfranam deyən.**

**Mənası;**

**Peyğəmbər ailəsinin qanını tökməz özünə müsəlman deyən şəxs.**

**Əhli-Beytin canına qəsd etməz iman əhli olan şəxs.**

**Ali-Muhəmmədə nifrət etməyi başarmaz**

**Məhşər günü Ğüfran Allahın tofiqinə talib olan şəxs...**

**(28)**

**Haşa ki, mülki-dünya üçün tərki-din edəm,**

**Ali-Rəsuli küşteyi-şəmşiri-kin edəm.**

**Haşa ki, cahü dövləti-bie'tibar üçün,**

**Şad eyləyüb Yezidi, Hüseyni həzin edəm.**

**Mənası;**

**Haşa ki, insan dünya mülkü üçün dini tərk edə.**

**Kin qılıncı ilə peyğəmbər ailəsini öldürə...**

**Haşa ki, etibarsız cah-cəlal və var-dövlət üçün**

**Yezidi şad edib, Hüseyni qəmləndirə...**

**(29)**

**Gər bəlayi-Kərbəla ol şah qədrin arturub,**

**Xəlqdən mümtaz ana verdi ülüvvi-iqtidar.**

**Kərbəla həm ol şəhi-mə'sumdan rəf'ət bulub,**

**Xəlqə olmuş qədr ilə mənzuri-eyni-e'tibar.**

**Mənası;**

**Kərbəla bəlaları Şah Hüseynin dəyərini artırıb,**

**Bütün məxluqatdan daha üstün iqtidar verib imama.**

**Kərbəlanın özü də o məsum Şahın hesabına başı ucalıq tapdı.**

**Xalq içində etibar və qədir-qiymət qazandı...**

**(30)**

**Əssəlam, ey asitanun rəşki-firdövsi-bərin,**

**Xakrubi-dərgəhün müjgani-çeşmi-hurü ’eyn.**

**•Salam! Ey o kəs ki, əzəmətli Firdovsi-Bərin qalası sənin dərgahına həsəd aparar!**

**Dərgahındakı tullantılara belə hurilər gözlərini dikər...**

**Əssəlam, ey xadimi-dərgahi-qədrin Cəbrəil,**

**Midhətün Qur’anü məddahun İlahilaləmin.**

**•Salam! Ey o kəs ki, dərgahında Cəbrail xidmətçi olar...**

**Aləmin İlahı və Quran mədh edənindir sənin!**

**Ya Rəsulullah, bənəm kami-dili-Zəhra, Hüseyn,**

**Yüz sürüb dərgahinə gəldim diləfgarü həzin,**

**•Ey Allahın rəsulu! Bu mənəm; Zəhranın ürəyinin muradı Hüseyn!**

**Dərgahına üzümü sürtüb, ürəyi qəmli halda gəlmişəm...**

**Ol bənəm kim, ümmətün hifzini əmr etdün bana.**

**Ol bənəm kim, gənci-əsrara bəni qıldun əmin.**

**•Ümməti tapşırdığın o şəxs mənəm...**

**Sirr xəzinəsini əmanət etdiyin şəxs mənəm...**

**Ümməti-zalim bana izhari-bidad etdilər,**

**Bikəsəm, biçarəyəm, sənsən bana ancaq mü'in.**

**•Zalım ümmət mənə zülm etdi.**

**Kimsəsizəm, çarəsizəm, sənsən ancaq həmdəmim...**

# SON